# Bakıda Kanakidə qanunsuz həbs edilmiş insanlara həsr olunan fləş-mob keçirilib

Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində fləş-mob keçirilib. AZƏRTAC xəbər verir ki, fləş-mob Kanakidə qanunsuz həbs edilmiş insanlara həsr olunub.

Fləş-mob iştirakçıları həmin şəxslərin, həmçinin müstəmləkə qurbanlarının fotolarının əks olunduğu köynəkləri geyinib, siyasi məhbusların portretlərini qaldırıblar. Sonda isə kolonializmlə mübarizədə həmrəylik nümayiş etdirilib.

Fləş-mob zamanı həmçinin siyasi məhbusların fotoları videoçarx şəklində böyük ekranda nümayiş etdirilib.

Azərbaycan. - 2025.- 2 aprel (№ 62).- S.14.